# PAULUN KOLOSSELİLƏRƏ MƏKTUBU

## GİRİŞ

Paulun bu məktubu indiki Türkiyə ərazisindəki Efes şəhərinin şərqində yerləşən Kolosse şəhərinin imanlılar cəmiyyətinə ünvanlanıb. Bu cəmiyyət Paul tərəfindən yaradılmamışdı, lakin Paul özünü məsuliyyətli hiss edirdi, çünki oraya Efesdən işçilər göndərmişdi. Paul xəbər tutmuşdu ki, o cəmiyyətdəki yalançı müəllimlər Allahı tanımaq və tamam xilas almaq üçün insanın mələklərə və başqa ruhani qüvvələrə səcdə etmələrinin lazım olduğunu öyrədirdi. Bundan əlavə, bu müəllimlər həm də sünnət, yemək qaydaları və digər ənənələrə əməl etməyi tələb edirdilər.

Paul bu saxta təlimlərə qarşı duraraq həqiqi məsihçi təlimini nümayiş etdirir. Həvarinin öyrətdiklərinə əsasən yalnız İsa Məsih xilas etməyə qadirdir, digər əqidələr və işlər əslində insanı Ondan uzaqlaşdırır. Allah-Taala İsa Məsih vasitəsilə dünyanı yaratdı və Onun vasitəsilə dünyanı Özünə tərəf döndərir. Dünyanın xilas ümidi yalnız İsa Məsihlə birlikdə olmaqdır. Sonra Paul imanlıların həyatları üçün bu böyük təlimi necə tətbiq etdiyini izah edir.

Maraqlı odur ki, Paulun bu məktubunu Kolosse cəmiyyətinə çatdıran Tixik Onisimlə birgə yola çıxmışdı; bu adam haqqında Paul Filimona xahiş məktubunu yazmışdır.

**Kitabın məzmunu:**

1:1-8 Giriş
1:9–2:19 Məsihin təbiəti və işi
2:20–4:6 Məsihdə yeni həyat
4:7-18 Son salamlar

1 Allahın iradəsi ilə Məsih İsanın həvarisi mən
Pauldan və Timotey qardaşdan 2 Kolossedəki
Məsihdə olan müqəddəs və sadiq bacı-qardaşlara
salam! Atamız Allahdan* sizə lütf və sülh olsun!

*Paul Allaha şükür edir*

3 Sizin üçün həmişə dua edərkən Allaha –
Rəbbimiz İsa Məsihin Atasına şükür edirik.
4 Çünki sizin Məsih İsaya imanınızdan və bütün
müqəddəslərə göstərdiyiniz məhəbbətdən
xəbərdar olduq. 5 İmanınız və məhəbbətiniz
göylərdə sizin üçün saxlanan şeylərə bağladığınız
ümiddən qaynaqlanır. Bu barədə sizə çatan, Müjdə
olan həqiqət kəlamından əvvəlcədən eşitmisiniz.
6 Bu Müjdə onu eşitdiyiniz, həqiqətdə Allahın
lütfünü dərk etdiyiniz gündən bəri sizdə olduğu
kimi bütün dünyada da bəhrə verməkdə və
yayılmaqdadır. 7 *Bunu bizimlə birgə Məsihin
qulu və sizin üçün† çalışan Onun sadiq xidmətçisi
sevimli Epafradan öyrəndiniz. 8 O, Ruhdan
qaynaqlanan məhəbbətinizin xəbərini də bizə
çatdırdı.

*Paulun Kolosselilər üçün duası*

---

* **1:2** Allahdan – bəzi əlyazmalarda Allahdan və Rəbb İsa Məsihdən (Rom. 1:7). * **1:7** Kol. 4:12; Flm. 23-24 † **1:7** Sizin üçün – bəzi əlyazmalarda bizim üçün.

9 Ona görə bunu eşitdiyimiz gündən bəri sizin
tam hikmət və ruhani idrakla Allahın iradəsini
bütünlüklə qavramanız üçün biz də dualarımızı
və yalvarışlarımızı kəsmədik. 10 Belə ki Rəbbə
layiq şəkildə həyat sürərək Onu hər cəhətdən razı
salasınız və hər cür xeyirli əməldə bəhrə verib
Allahı tanımaqda böyüyəsiniz, 11 hər şeyə dözərək
səbir edə bilməniz üçün Onun izzətli qüvvəsinə
güvənərək hər cür qüdrətlə möhkəmlənəsiniz,
12 müqəddəslərin nurda olan irsinə şərik olmanız
üçün sizə səlahiyyət verən Ataya sevinclə şükür
edəsiniz. 13 O bizi zülmət hakimiyyətindən xilas
edib Öz sevimli Oğlunun Padşahlığına köçürtdü.
14 *Oğlunda‡ satınalınmaya – günahlarımızın
bağışlanmasına malikik.

## *Məsihin şəxsiyyəti və vəzifəsi*

15 Görünməz Allahın surəti və bütün yaradılış
üzərində ilk doğulan Odur. 16 Çünki göylərdə və
yerdə olan, görünən və görünməyən hər şey – taxt-
lar, ağalar, başçılar, hakimlər Onda yarandı. Nə
varsa, Onun vasitəsilə və Onun üçün yarandı.
17 Hər şeydən əvvəl var olan Odur və hər şey
Onda bərqərar olur. 18 *Bədənin, yəni imanlılar
cəmiyyətinin Başı da Odur. Hər şeydə birinci olsun
deyə başlanğıc olan, ölülər arasından dirilərək ilk
doğulan Odur. 19 Çünki Allah Onda tam bütövlüyü
ilə yaşamağa 20 və Onun vasitəsilə, çarmıxda axıdılan
qanı ilə barışıq yaradaraq həm yerdə, həm də

* **1:14** Ef. 1:7 ‡ **1:14** Oğlunda – bəzi əlyazmalarda Oğlunda, Onun qanı vasitəsilə. * **1:18** Ef. 1:22-23; 2:14-16

göylərdə olan hər şeyi Özü ilə barışdırmağa razı oldu.

21 Etdiyiniz pis əməllərə görə bir zamanlar
düşüncələrinizdə Allaha yad və düşmən idiniz.
22 İndi isə Məsih cismən ölməklə Öz bədəni vasitəsilə
sizi Allahla barışdırdı ki, sizi Onun qarşısında
müqəddəs, ləkəsiz və nöqsansız təqdim etsin. 23 Bir
şərtlə ki eşitdiyiniz Müjdənin verdiyi ümiddən
sarsılmadan, iman əsasında möhkəm və sabit
durasınız. Bu Müjdə səma altında olan bütün
yaradılışa vəz olundu və mən Paul Müjdənin
xidmətçisi oldum.

### *Paulun imanlılara xidməti*

24 İndi sizin üçün əzab çəkdiyimə sevinirəm
və Məsihin Öz bədəni olan imanlılar cəmiyyəti
uğrunda çəkdiyi əziyyətlərin qalanını canıma cəfa
verərək tamamlayıram. 25 Allahın sizin üçün
mənə verdiyi vəzifəyə görə mən bu cəmiyyətin
xidmətçisi oldum ki, Allahın kəlamını, 26 yəni
əsrlərdən və nəsillərdən gizlədilən, indi isə Onun
müqəddəslərinə açılan sirrini tam bəyan edim.
27 Allah millətlər arasında bu sirrin izzətinin
necə zəngin olduğunu müqəddəslərə bildirmək
istədi. Bu sirr sizdə olan Məsihdir. O sizə izzətə
qovuşmaq ümidini verir. 28 Hər bir insanı Məsihdə
kamilləşmiş olaraq Allaha təqdim etmək üçün
hamıya tam müdrikliklə nəsihət və təlim verərək
Məsihi bəyan edirik. 29 Bu məqsədlə də zəhmət
çəkirəm və Onun məndə qüdrətlə fəaliyyət göstərən
qüvvəsi ilə mübarizə aparıram.

# 2

1 İstəyirəm ki, həm siz, həm Laodikeyada olan-
lar, həm də mənim üzümü görməyənlərin hamısı
üçün nə qədər böyük mübarizə apardığımı biləsiniz.
2 Ürəklərinin cəsarət tapıb məhəbbətdə birləşməsini
istəyirəm; belə ki idrakın verdiyi kamil etimadın
bütün zənginliyinə nail olsunlar, Allahın sirri olan
Məsihi* dərk etsinlər. 3 Çünki hikmət və biliyin
bütün xəzinələri Məsihdə gizlədilmişdir. 4 Bunu
mən ona görə deyirəm ki, kimsə sizi dilə tutub al-
datmasın. 5 Çünki cismən uzaqda olsam da, ruhən
sizinləyəm. İntizamınızı və Məsihə olan imanınızın
möhkəmliyini görüb sevinirəm.

### *Məsihin qoyduğu həyat tərzi*

6 Buna görə Rəbb Məsih İsanı qəbul etdiyiniz kimi
Onda həyat sürün. 7 Şükürlərlə dolub-daşaraq Onda
kök salıb inkişaf edin və öyrəndiyiniz kimi imanda
möhkəmlənin.
8 Baxın, Məsihə deyil, insan adət-ənənəsinə,
dünyanın ibtidai təlimlərinə istinad edərək fəlsəfə
və boş aldadıcı sözlərlə kimsə sizi əsir etməsin.
9 Çünki Allahın tam bütövlüyü bədəncə Məsihdə
yaşayır. 10 Siz də Onda tamamlanmısınız. O
hər başçının və hakimin Başıdır. 11 Həmçinin
siz Məsihdə insan əli ilə deyil, Onun təmin
etdiyi sünnətlə cismani təbiətdən† ayrılaraq
sünnət olundunuz. 12 *Vəftizdə Onunla birlikdə
dəfn edildiniz və Onu ölülər arasından dirildən

---

* **2:2** Allahın sirri olan Məsihi – bəzi əlyazmalarda Allahın – həm Atanın, həm də Məsihin sirrini. † **2:11** Cismani təbiətdən – bəzi əlyazmalarda günahkar cismani təbiətdən. * **2:12** Rom. 6:4

Allahın gücünə olan iman vasitəsilə Onunla
birlikdə dirildiniz. 13 *Siz təqsirləriniz və cismani
sünnətsizliyiniz üzündən ölü ikən Allah sizə
Məsihlə birgə həyat verdi və bütün təqsirlərimizi
bağışlayıb 14 *tələbləri ilə əleyhimizə və zərərimizə
olan borc sənədini‡ ləğv etdi, onu çarmıxa
mıxlayaraq qarşımızdan götürdü. 15 Allah başçıları
və hakimləri§ tərk-silah edib, onlara çarmıxda
qələbə çalaraq aləmdə rüsvay etdi.
16 *Buna görə qoy heç kim yemək-içmək üzündən
yaxud bayram, Təzə Ay mərasimi ya Şənbə gününə
görə sizi mühakimə etməsin. 17 Çünki bunlar gələcək
şeylərin kölgəsidir, əsli isə Məsihdədir. 18 Qoy heç
kim sizdən mütilik və mələklərə səcdə tələb edərək
sizi mükafatınızdan məhrum etməsin. Belə bir şəxs
gördüyü görüntülərə** güvənir və boş yerə öz cis-
mani ağlı ilə lovğalanır. 19 *O, bədənin Başı olan
Məsih ilə əlaqəni itirdi. Bütün bədən†† buğumlar
və bağlarla üzvi surətdə Məsihə bağlanaraq təmin
olunur, qurulur və Allah bəslədiyinə görə böyüyür.

### *Məsihdə yeni həyat*

20 Məsihlə birgə ölüb dünyanın ibtidai
təlimlərindən qurtulduğunuz halda nə üçün
dünyadakılar kimi yaşayaraq 21 «buna əl vurma,
bunu yemə, buna toxunma» kimi əmrlərə əməl
edirsiniz? 22 Bunların hamısı istifadə olunduqca

---

* **2:13** Ef. 2:1-5 * **2:14** Ef. 2:14-16 ‡ **2:14** Borc sənədi – yəni Musanın Qanunu. § **2:15** Başçıları və hakimləri – yəni qüvvətli şər ruhları. * **2:16** Rom. 14:1-6 ** **2:18** Gördüyü görüntülərə – bəzi əlyazmalarda görmədiyi şeylərə. * **2:19** Ef. 4:16 †† **2:19** Bədən – yəni imanlılar cəmiyyəti.

məhv olub gedən şeylərlə əlaqədar olur, çünki insanların verdiyi əmrlərə və təlimlərə əsaslanır.
23 Şübhəsiz, bu qaydalar uydurma dindarlıq, mütilik və bədənə xətər yetirməkdə zahirən müdrik görünür, amma cismani təbiətin həvəsinin qarşısını almaq üçün onların heç bir dəyəri yoxdur.

# 3

1 *Beləliklə, Məsihlə birlikdə dirildiyinizə görə
ucalardakı şeyləri axtarın. Orada Məsih Allahın
sağında oturub. 2 Dünyəvi şeyləri deyil, ucalardakı
şeyləri düşünün. 3 Çünki siz ölmüsünüz və həyatınız
Məsihlə birlikdə Allahda saxlanılıb. 4 Həyatınız
olan Məsih zühur edəndə siz də Onunla birgə izzətlə
zühur edəcəksiniz.
5 Buna görə cisminizin dünyəvi meylləri olan
cinsi əxlaqsızlığı, murdarlığı, şəhvəti, pis ehtirası
və bütpərəstliyə tay olan tamahkarlığı öldürün.
6 Bunlara görə Allahın qəzəbi itaətsizlərin üzərinə*
gəlir. 7 Əvvəllər siz bunların içində yaşayanda
belə həyat sürdünüz. 8 İndi isə siz də qəzəbi,
hiddəti, kini, böhtanı, ağzınızdan çıxan ədəbsiz
sözlər kimi şeylərin hamısını kənara atın. 9 *Bir-
birinizə yalan deməyin, çünki köhnə mənliyinizi və
onun əməllərini üzərinizdən çıxarıb 10 yeni mənliyə
büründünüz. Yeni mənliyiniz onu Yaradanın
surətinə bənzər şəkildə təzələnir ki, biliyiniz tam
olsun. 11 Bu təzələnmədə Yunanla Yəhudi, sünnətli

* **3:1** Zəb. 110:1
* **3:6** İtaətsizlərin üzərinə – bəzi əlyazmalarda bu sözlər yoxdur.
* **3:9** Yar. 1:26; Ef. 4:22-24

ilə sünnətsiz, barbar, Skif, qulla azad arasında fərq yoxdur: Məsih hər şeydir və hamımızdadır.

12 *Beləliklə, Allahın seçilmişləri, müqəddəsləri və sevimliləri kimi ürək mərhəməti, xeyirxahlıq,
itaətkarlıq, həlimlik və səbirə bürünün. 13 *Bir-
birinizə dözün və birinizin digərindən şikayəti varsa, bağışlayın. Rəbb sizi bağışladığı kimi siz
də bağışlayın. 14 Bütün bunlardan əlavə, kamil
birliyin bağı olan məhəbbətə bürünün. 15 Məsihin
sülhü qoy ürəklərinizdə münsiflik etsin, çünki bir bədənin üzvləri kimi bu sülhə dəvət olundunuz.
Həmçinin şükür edənlər olun! 16 *Qoy aranızda
Məsihin kəlamı bütün zənginliyi ilə yaşasın. Bir-birinizə tam müdrikliklə təlim və nəsihət verin, məzmurlar, ilahilər və ruhani nəğmələr söyləyib ürəklərinizdə Allaha minnətdar ola-ola nəğmə ox-
uyun. 17 Dediyiniz və etdiyiniz hər şeyi Rəbb İsanın
adı ilə edin, Onun vasitəsilə Ata Allaha şükür edin.

### *Evdə olan münasibətlər*

18 *Ey qadınlar, Rəbdə olanlara layiq olduğu kimi ərlərinizə tabe olun.

19 *Ey ərlər, öz arvadlarınızı sevin və onlarla sərt davranmayın.

20 *Ey övladlar, hər işdə ata-ananıza itaət edin, çünki bu, Rəbbi razı salır.

21 *Ey atalar, övladlarınızı incitməyin, yoxsa cəsarətləri qırılar.

---

* **3:12** Ef. 4:2 * **3:13** Ef. 4:32 * **3:16** Ef. 5:19-20 * **3:18** Ef. 5:22; 1Pet. 3:1-2 * **3:19** Ef. 5:25; 1Pet. 3:7 * **3:20** Ef. 6:1 * **3:21** Ef. 6:4

22 *Ey qullar, hər işdə dünyəvi ağalarınıza itaət
edin. Bunu insanları razı salmaq üçün gözə xoş
görünən xidmətlə deyil, səmimi qəlbdən, Allahdan
qorxaraq edin. 23 Gördüyünüz hər işi insanlar
üçün deyil, Rəbb üçün edən kimi can-dildən edin.
24 Bilin ki, Rəbdən bunun əvəzinə irs alacaqsınız,
çünki siz Rəbb Məsihə qulluq edirsiniz. 25 *Kim
haqsızlıq edərsə, işlətdiyi haqsızlığın əvəzini ala-
caq, çünki Rəbb tərəfkeşlik etməz.

# 4

1 *Ey ağalar, bilin ki, göydə sizin də Ağanız var.
Ona görə qullarınızla ədalətli və insaflı olun.

### *Müxtəlif öyüdlər*

2 Özünüzü duaya həsr edin və duada şükür
edərək oyaq durun. 3 Eyni zamanda bizim üçün
də dua edin ki, kəlamı yaymaq üçün Allah bizə
bir qapı açsın və uğrunda həbs olunduğum Məsihin
sirrini elan edim. 4 Dua edin ki, mən bu sirri
lazımınca açıq-aşkar bildirim.

5 *Kənar insanlarla müdrikliklə rəftar edin və hər
fürsətdən istifadə edin. 6 Sözünüz duzlu və hər
zaman lütflə dolu olsun. Beləcə hər adama necə
cavab vermək lazım olduğunu biləsiniz.

### *Salam göndərmə*

7 * *Rəbdə sevimli qardaş, sadiq xidmətçi və
əməkdaş olan Tixik mənim barəmdə hər şeyi sizə
bildirəcək. 8 Onu bu məqsədlə yanınıza göndərdim

---

* **3:22** Ef. 6:5-8 * **3:25** Qanun. 10:17; Ef. 6:9 * **4:1** Ef. 6:9
* **4:5** Ef. 5:16 * **4:7** Həv. 20:4; 2Tim. 4:12 * **4:7** Ef. 6:21-22

ki, bizim vəziyyətimizdən xəbərdar olasınız* və
o sizin qəlbinizi ovutsun. 9 *Onunla birlikdə
sizlərdən biri olan sadiq və sevimli Onisim qardaşı
da göndərirəm. Onlar sizə buradakı bütün işlər
barədə məlumat verəcək.

10 *Mənimlə birlikdə məhbus olan Aristarx
və Barnabanın əmisi oğlu Mark da sizə salam
göndərir. Mark haqqında əmrləri almısınız.
Yanınıza gəlsə, onu qəbul edin. 11 Yust çağırılan
Yeşua da sizə salam göndərir. Sünnətlilərdən
yalnız bunlar Allahın Padşahlığı üçün mənim
əməkdaşlarımdır və onlar mənə təsəlli verdilər.

12 *Məsih İsanın qulu və sizlərdən olan Epafra
sizə salam göndərir. Allahın hər iradəsini yerinə ye-
tirərək kamil və tam əminliklə möhkəm dayanasız
deyə o sizin üçün hər zaman dualar edərək
mübarizə aparır. 13 Onun haqqında şəhadət edirəm
ki, sizin üçün, Laodikeyada və Hierapolisdə olan-
lar üçün çox zəhmət çəkir.

14 *Sevimli həkim Luka və Dima da sizə salam
göndərir.

15 Laodikeyada olan bacı-qardaşlara, Nimfaya və
onun evindəki cəmiyyətə salam söyləyin.

16 Bu məktub aranızda oxunduqdan sonra
onu Laodikeyalılar cəmiyyətində də oxudun,
Laodikeyadan gələn məktubu isə siz də oxuyun.
17 *Arxipə bunu deyin: «Rəbdə sənə tapşırılan
xidməti diqqətlə başa çatdır».

---

* **4:8** Bizim vəziyyətimizdən xəbərdar olasınız – bəzi əlyazmalarda sizin vəziyyətinizdən xəbərdar olsun. * **4:9** Flm. 10-12 * **4:10** Həv. 12:12,25; 15:37-39; 19:29; 27:2; Flm. 23-24 * **4:12** Kol. 1:7; Flm. 23-24 * **4:14** 2Tim. 4:10-11; Flm. 23-24 * **4:17** Flm. 1-2

18 Mən Paul bu salamı öz əlimlə yazıram. Unut-
mayın ki, mən həbsdəyəm. Sizə lütf olsun!

# Azərbaycan dilində Müqəddəs Kitab
## The Holy Bible in the Azerbaijani language, also known as the Azeri language, of Azerbaijan, Iran, Iraq, Syria, and Turkey

Copyright © 2008 Müqəddəs Kitab Sirkəti

Language: Azeri (Azerbaijani, South)

Translation by: Institute for Bible Translation

Contributor: Bible Society of Azerbaijan

This translation text is made available to you under the terms of the Creative Commons License: Attribution-Noncommercial-No Derivative Works. (http:// creativecommons.org/ licenses/ by-nc-nd/ 3.0/) In addition, you have permission to port the text to different file formats, as long as you do not change any of the text or punctuation of the Bible.

You may share, copy, distribute, transmit, and extract portions or quotations from this work, provided that you include the above copyright information:

You must give Attribution to the work.

You do not sell this work for a profit.

You do not make any derivative works that change any of the actual words or punctuation of the Scriptures.

Permissions beyond the scope of this license may be available if you contact us with your request.

This translation is made available to you under the terms of the Creative Commons Attribution-Noncommercial-No Derivatives license 4.0.

You may share and redistribute this Bible translation or extracts from it in any format, provided that:

You include the above copyright and source information.

You do not sell this work for a profit.

You do not change any of the words or punctuation of the Scriptures.

Pictures included with Scriptures and other documents on this site are licensed just for use with those Scriptures and documents. For other uses, please contact the respective copyright owners.

2018-11-09

PDF generated using Haiola and XeLaTeX on 11 Nov 2022 from source files dated 9 Oct 2020

5d1dd449-0589-5c75-ab0e-6b96786f2985